# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**"Ulu Öndər Heydər Əliyev yolunun Müzəffər davamçısı"**



4

# Azərbaycan - BƏƏ: strateji tərəfdaşlıqda yeni mərhələ

Prezident İlham Əliyev: "Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri uğurla inkişaf etməkdə davam edəcək"



2

SƏS

№ 234 (7402)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

19 dekabr 2025-ci il.
Qiyməti 60 qəpik

# Humanizmə və xeyirxahlığa söykənən amnistiya aktı

Prezident İlham Əliyevin "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan olunması təşəbbüsü 20 mindən çox adama şamil ediləcək



5

**ƏHALİYƏ ŞAD XƏBƏR! Pensiya və müavinətlər bu qədər ARTIRILACAQ**



8

**Onları qəbul etmirlər, amma onlarsız da olmur**



7

**Ermənistanı seçim və dilemma qarşısında qoyan TƏZYİQLƏR**



3

## Avropa İttifaqı Rusiyanın pulu ilə Ukraynanı silahlandırır...



5

## Xatırlama və xatırlatma



6

# Azərbaycan - BƏƏ: strateji tərəfdaşlıqda yeni mərhələ

## Prezident İlham Əliyev: "Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri uğurla inkişaf etməkdə davam edəcək"



***Azərbaycan Prezidenti İlham Əliyev Əbu-Dabidə keçiriləcək "Gələcəyin Oyunları 2025" qlobal idman turnirinin açılış mərasimində iştirak etmək üçün Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri əlaqələrin müasir dövrümüzdə yeni inkişaf mərhələsində olduğunun təzahürüdür. Dövlətimizin başçısının səfər çərçivəsində BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə ikitərəfli görüşü keçirilib. Bu səfərin məqsədi yalnız idman tədbirində iştirakla məhdudlaşmır, həm də Azərbaycan-BƏƏ strateji tərəfdaşlığının möhkəmlənməsi, iqtisadi və humanitar əməkdaşlığın genişləndirilməsi, həmçinin regionda stabilliyin qorunması baxımından böyük əhəmiyyət kəsb edir.***

Qeyd edək ki, görüş zamanı strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-BƏƏ ikitərəfli münasibətləri bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi, enerji, həmçinin bərpaolunan enerji, mədəni, humanitar və digər istiqamətlərdə uğurla inkişaf etdiyi vurğulanıb. Dövlətimizin başçısının BƏƏ-yə, BƏƏ Prezidentinin isə Azərbaycana səfərləri məmnunluqla xatırlanaraq, bütün bunların və müxtəlif səviyyələrdə həyata keçirilən digər qarşılıqlı səfərlərin münasibətlərimizin inkişafında roluna toxunulub.Görüşdə Azərbaycan və BƏƏ prezidentləri əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıblar.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan "Gələcəyin oyunları 2025" adlı illik qlobal idman turnirinin açılış mərasimində iştirak ediblər.

Qeyd edək ki, "Gələcəyin Oyunları" hər il təşkil olunması nəzərdə tutulan qlobal idman turniridir. Turnir iki mərhələdə həyata keçirilir. İlk mərhələdə idmançılar fiziki idman növləri üzrə yarışırlar. İkinci mərhələdə isə idmançıların rəqəmsal oyunlar üzrə bacarıqları sınaqdan keçirilir. "Növbəti nəsil insanlar. Gələcəyini oyna" devizi altında təşkil olunan turnirdə müxtəlif ölkələrdən idmançılar ümumilikdə 11 idman növü üzrə yarışacaqlar. Ötən il BƏƏ 9 iddiaçı namizəd arasında qalib gələrək, 2025-ci ildə keçiriləcək "Gələcəyin Oyunları" turnirinə ev sahibliyi etmək hüququ qazanıb. Qeyd edək ki, "Gələcəyin Oyunları" turniri hər il təşkil olunur və idmançıların həm fiziki, həm də rəqəmsal oyunlar üzrə bacarıqlarını nümayiş etdirdiyi qlobal platformadır.

### Strateji Tərəfdaşlıqda Anlaşma Memorandumu

Son illərdə ikitərəfli əlaqələr keyfiyyətcə yeni səviyyəyə yüksəlib, dövlət başçıları arasında mövcud münasibətlər bütün sahələrdə əməkdaşlığın inkişafına təkan verir. Qarşılıqlı səfərlər isə əlaqələrin daha da möhkəmlənməsinə xidmət edir, iqtisadi, siyasi və humanitar əməkdaşlıq üçün geniş imkanlar yaradır. Prezident İlham Əliyev indiyədək Birləşmiş Ərəb Əmirliklərinə 6 dəfə, BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan isə Azərbaycana 3 dəfə səfər edib. Bu səfərlər iki ölkə arasında strateji dialoqun və qarşılıqlı etimadın möhkəmlənməsində mühüm rol oynayıb. Səfərlər zamanı imzalanan sənədlər və razılaşmalar əməkdaşlığın strukturunu və gələcək hədəflərini dəqiqləşdirir. Belə ki, 2024-cü ilin yanvarında BƏƏ Prezidentinin Azərbaycana rəsmi səfəri zamanı "Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanıb, 2025-ci ilin sentyabrında isə "Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələri haqqında Birgə Bəyannamə" qüvvəyə minib. Bu sənədlər Azərbaycan və BƏƏ arasında ikitərəfli münasibətləri keyfiyyətcə yeni mərhələyə qaldıraraq strateji tərəfdaşlığın bütün sahələrdə möhkəmlənməsinə xidmət edir. Xüsusilə siyasət, iqtisadiyyat, ticarət, enerji və investisiya sahələrində əməkdaşlığın genişləndirilməsini təmin edir, qarşılıqlı faydalı layihələrin daha səmərəli və davamlı şəkildə həyata keçirilməsi üçün mükəmməl hüquqi və institusional zəmin yaradır. Hərtərəfli Strateji Tərəfdaşlıq Bəyannaməsi iki ölkə arasında etimadın artırılmasına, qarşılıqlı dialoqun intensivləşdirilməsinə və uzunmüddətli əməkdaşlıq perspektivlərinin müəyyənləşdirilməsinə imkan verir.

Ötən tarixi dövrə nəzər salsaq görərik ki, Azərbaycanın ərəb dünyası ilə tarixi-mədəni bağlılığı yaradan sənədlər mövcuddur. Azərbaycan müstəqillik qazandıqdan sonra ölkələrimiz arasında diplomatik əlaqələr yaradılıb. Starteji cəhətdən əhəmiyyətli və eyni zamanda, mürəkkəb bölgədə yerləşən Azərbaycan həm öz milli maraqlarına, müstəqilliyinin qorunub möhkəmləndirilməsinə, həm də digər dövlətlərlə bərabərhüquqlu tərəfdaşlıq

münasibətlərinin qurulmasına böyük önəm verir. Ötən tarixi dövrə nəzər salsaq görərik ki, Azərbaycanın ərəb dünyası ilə tarixi-mədəni bağlılığı yaradan sənədlər mövcuddur. Mövcud münasibətlər çoxşaxəli, qarşılıqlı maraq əsasında qurulub, əməkdaşlıq əlaqələrinin inkişafına üstünlük verilib. Ölkələr arasında bu günə qədər imzalanmış sənədlər əməkdaşlıq üçün yeni imkanlar açıb. İki ölkə arasında səfirlik səviyyəsində rəsmi münasibətlər qurulub. Belə ki, Azərbaycanın 1997-ci il tarixli Qanunu ilə Azərbaycan Respublikasının Birləşmiş Ərəb Əmirliklərində Səfirliyi təsis edilib. Həmin səfirlik 2001-ci il 16 iyun tarixindən etibarən BƏƏ-nin paytaxtı Əbu-Dabi şəhərində fəaliyyət göstərir. Bundan başqa 14 mart 2012-ci il tarixində Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Dubay şəhərində Baş Konsulluq təsis edilib. 2005-ci ildə Azərbaycan ilə Ərəb Dövlətləri Liqası arasında Anlaşma Memorandumu imzalanması, 2007-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev Misir Ərəb Respublikasına rəsmi səfəri və s. bu ikitərəfli əməkdaşlığın inkişafına öz töhfəsini verir. Son illər ölkələrimiz arasında iqtisadiyyat, o cümlədən energetika sahəsində əlaqələr dinamik inkişafdadır. 2017-ci ildən bəri Dubay şəhərində ölkəmizin ticarət nümayəndəliyi, 2019-cu ildən isə yerli məhsullarımızın BƏƏ və Körfəz ölkələrində satışını təşkil etmək və "Made in Azerbaijan" brendinin BƏƏ bazarında daha çox tanıtmaq üçün "Azərbaycan Ticarət Evi" fəaliyyət göstərir. Hazırda Azərbaycanda BƏƏ investisiyalı 350-dən çox kommersiya qurumu qeydiyyatdadır.

Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin 2024-cü ildə Azərbaycana rəsmi və COP29 ilə bağlı səfərləri, bu səfərlər çərçivəsində dövlətimizin başçısı ilə keçirdiyi görüşlər və aparılmış müzakirələr də münasibətlərin hazırkı səviyyəsini ifadə edir. Təsadüfi deyil ki, COP29-un Azərbaycanda keçirilməsi haqqında qərar məhz BƏƏ-də keçirilən COP28-də qəbul olunmuşdu.

### Regionun enerji inkişafında inqilab

Dövlətlərarası münasibətlərdə iqtisadi-ticari əlaqələr genişlənib və siyasi münasibətlər mükəmməl səviyyədədir. Azərbaycan ilə BƏƏ arasında əlaqələrin inkişafında enerji sektorunun payı olduğunu xüsusilə vurğulamaq lazımdır. Zəngin neft-qaz potensialı ilə Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində bu sahədə imkanlarını daha da şaxələndirir. Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycanın bərpaolunan enerji sahəsinə qoyduğu investisiyalar da dostluğun və tərəfdaşlığın nümunəsinin göstəricisidir. Ölkələr ənənəvi enerji sahəsində yaxından əməkdaşlıq edirlər. Son illər ölkələrimiz arasında iqtisadiyyat, o cümlədən energetika sahəsində əlaqələr dinamik inkişafdadır. Bu sahənin inkişafında BƏƏ ilə əməkdaşlığımız xüsusi çəkiyə malikdir.

Azərbaycan ilə BƏƏ arasında əlaqələrin inkişafında enerji sektorunun xüsusi payının olması şübhəsizdir. Zəngin neft-qaz potensialı ilə Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan Azərbaycan bu sahədə imkanlarını daha da şaxələndirir və elektrik enerjisi, əsasən də "yaşıl enerji"nin önəmli təchizatçısına çevrilməyi planlaşdırır. Bununla bağlı mövcud potensialın reallaşdırılması, investisiya qoyuluşu "yaşıl enerji" sektorunun sürətli inkişafına yol açır. Xəzərin Azərbaycan sektorunda təsdiq olunmuş külək enerjisi potensialı 157 qiqavata bərabərdir. Azərbaycan 2030-cu ilədək olan dövrü əhatə edən strateji mərhələdə ölkənin elektrik enerjisinin istehsal gücündə bərpaolunan enerji mənbələrinin payının 30-40 faizə çatdırılması hədəf kimi qarşıya qoyulub.

### Gələcəkdə həyata keçiriləcək çoxsaylı layihələrin birincisi

Müasir dövrümüzdə dünyaya açıq olan Azərbaycan nəinki öz enerji tələbatlarını təmin edir, eləcə də xam nefti, neft məhsullarını, təbii qazı, neft-kimya məhsullarını və elektrik enerjisini ixrac edir. Azərbaycan Cənub Qaz Dəhlizi meqa enerji layihəsini öz tərəfdaşları ilə birgə başa çatdırıb. Bu layihə Azərbaycandan Cənubi Avropaya gedən inteqrasiya edilmiş boru kəmərləri sistemini qurub ki, həmin boru kəmərinin uzunluğu isə 3500 kilometrə malikdir. Azərbaycan ilə Birləşmiş Ərəb Əmirliklərinin siyasi, iqtisadi, təhlükəsizlik və digər sahələrdə sıx əməkdaşlıq həyata keçirir. Bu əlaqələrin daha da genişləndirilməsində mühüm əhəmiyyət kəsb edir. "Bizim böyük planlarımız var və əminəm ki, Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri uğurla inkişaf etməkdə davam edəcək. Əminəm ki, daha çox layihələr olacaq... Mən Azərbaycana etibar edən, bərpaolunan enerjiyə böyük həcmdə investisiya yatırmağı qərar verən və Azərbaycanın yaşıl gündəliklə bağlı hədəflərə çatmasına imkan yaradacaq şirkət olan "Masdar"a xüsusi minnətdarlığımı bildirmək istərdim. Bugünkü layihə gələcəkdə həyata keçiriləcək çoxsaylı layihələrin birincisidir" - deyən Prezident bildirib ki, biz mərhələlərlə 10 qiqavata qədər bərpaolunan enerji istehsal etmək üçün birgə işləməyi planlaşdırırıq və bu, regionun enerji inkişafında tam bir inqilab olacaq, çünki Azərbaycan dünyada ilk dəfə XIX əsrin ortalarında neftin istehsal olunduğu ölkədir.

Ölkələrimiz arasında mədəni sahədə əlaqələr də ardıcıl və sistemli şəkildə inkişaf etdirilir. Keçirilən mədəniyyət günləri, sərgilər və təqdimatlar xalqlar arasında qarşılıqlı anlaşmanın möhkəmlənməsinə mühüm töhfə verir. Xüsusilə 2024-cü ildə Əbu-Dabi şəhərində təşkil olunmuş "Şuşa Günləri" adlı tədbir Azərbaycanın zəngin tarixi və mədəni irsinin BƏƏ ictimaiyyətinə çatdırılması baxımından əlamətdar hadisə kimi dəyərləndirilir. Bu cür təşəbbüslər humanitar diplomatiyanın güclənməsinə, ölkələrimizin dostluq münasibətlərinin daha da dərinləşməsinə və uzunmüddətli əməkdaşlıq üçün etibarlı əsasların formalaşmasına xidmət edir.

Azərbaycan və BƏƏ, eyni zamanda, Birləşmiş Millətlər Təşkilatı, Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı da daxil olmaqla beynəlxalq platformalar çərçivəsində uğurla əməkdaşlıq edirlər. Xüsusilə Azərbaycanın BMT Təhlükəsizlik Şurasında qeyri-daimi üzv olduğu 2012-2013-cü illərdə BƏƏ-nin ölkəmizə göstərdiyi siyasi dəstək yüksək qiymətləndirilir. Bu əməkdaşlıq tərəflərin beynəlxalq hüquqa və çoxtərəfli diplomatiyaya verdiyi önəmi nümayiş etdirməklə yanaşı, regional və qlobal səviyyədə sülhün, təhlükəsizliyin və siyasi sabitliyin möhkəmləndirilməsinə mühüm töhfə verir.

### Ticarət, investisiya və yaşıl enerji əməkdaşlığı

Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında iqtisadi sahədə əməkdaşlıq son illərdə dinamik şəkildə inkişaf edir və konkret rəqəmlərdə öz təsdiqini tapır. Belə ki, cari ilin yanvar-oktyabr aylarında iki ölkə arasında ticarət dövriyyəsi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 80 faizdən çox artaraq 147,49 milyon ABŞ dollarına çatıb. Bu artım qarşılıqlı iqtisadi maraqların genişləndiyini, eyni zamanda, imzalanmış sazişlərin real nəticələr verdiyini göstərir. İnvestisiya sahəsində isə Azərbaycan İnvestisiya Holdinqi ilə Əbu-Dabi İnkişaf Holdinqi tərəfindən yaradılmış Birgə İnvestisiya Fondu bir sıra prioritet layihələrin maliyyələşdirilməsinə və uzunmüddətli iqtisadi əməkdaşlığın möhkəmlənməsinə şərait yaradır.

Turizm sahəsində əlaqələrin inkişafında birbaşa aviareyslərin xüsusi rolunu da vurğulamalıyıq. Bakı ilə Əbu-Dabi, Dubay və Şarja şəhərləri arasında həyata keçirilən birbaşa uçuşlar insanların gediş-gəlişini asanlaşdır Son illər Azərbaycanla BƏƏ arasında hərtərəfli əlaqələrin genişlənməsi, xüsusilə də nəhəng enerji layihələrinin reallaşdırılması münasibətləri yeni mərhələyə çıxarıb. Bu əlaqələr münasibətlərin daha yüksək səviyyəyə qaldırılmasına öz töhfəsini verir. Prezident İlham Əliyevin bildirdiyi kimi, "Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri uğurla inkişaf etməkdə davam edəcək".

***Nəzakət ƏLƏDDİNQIZI***

# Tahir Budaqovla BMT-nin Azərbaycan Respublikasındakı Rezident Əlaqələndiricisi xanım Vladanka Andreyeva arasında görüş keçirilib



Dekabrın 18-də Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqovla BMT-nin Azərbaycan Respublikasındakı Rezident Əlaqələndiricisi xanım Vladanka Andreyeva arasında görüş keçirilib. Görüşdə bünövrəsi Ulu Öndər Heydər Əliyevin hakimiyyəti dövründə qoyulmuş və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən keyfiyyətcə yeni mərhələyə yüksəldilmiş ölkəmizlə BMT arasındakı əməkdaşlıqdan, bu əməkdaşlıq çərçivəsində həyata keçirilən tədbirlərin, xüsusilə də "2021-2025-ci illər üçün Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi"nin icrasının, Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf Məqsədləri üzrə Milli Məlumatlandırma Portalının, "Milli Dayanıqlı İnkişaf Məqsədlərinin Monitorinq Sistemləri üzrə BMT-DSK Birgə İşçi Qrupu"nun yaradılmasının, BMT-nin Ölkə üzrə İdarə Heyəti (UNCT) və Dövlət Statistika Komitəsi arasındakı əməkdaşlıq çərçivəsində "DİM-lər üçün məlumatların dezaqreqasiyası" adlı praktiki vəsaitin hazırlanmasının statistikanın inkişafı istiqamətində mühüm addımlardan olduğu, BMT-nin Uşaq Fondunun dəstəyi ilə 2023-cü ildə keçirilmiş Çoxgöstəricili Klaster Sorğusu nəticəsində 18 DİM göstəricisi üzrə məlumatların əldə edildiyi bildirilmişdir. Eyni zamanda Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatı arasında imzalanmış 2026-2030-cu illər üçün Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi (UNSDCF) müzakirə edilmiş, milli statistika sistemlərinin gücləndirilməsi, DİM-lərin monitorinqi və hesabatlılığı istiqamətində fikir mübadiləsi aparılmışdır. Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov ölkəmizdə fəaliyyəti başa çatan BMT-nin Azərbaycan Respublikasındakı Rezident Əlaqələndiricisi xanım Vladanka Andreyevaya faydalı əməkdaşlıq üçün təşəkkür etmiş və gələcək fəaliyyətində uğurlar arzulamışdır. BMT-nin Azərbaycan Respublikasındakı Rezident Əlaqələndiricisi xanım Vladanka Andreyeva səmimi görüşə görə Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqova öz minnətdarlığını bildirmişdir.



## MDB iştirakçısı olan dövlətlərin Statistika Xidmətləri Rəhbərləri Şurasının 74-cü iclası keçirilib

Dekabrın 18-də Müstəqil Dövlətlər Birliyi (MDB) iştirakçısı olan dövlətlərin Statistika Xidmətləri Rəhbərləri Şurasının videokonfrans formatında növbəti 74-cü iclası keçirilib. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqovun sədrliyi ilə keçirilən videokonfransda MDB Dövlətlərarası Statistika Komitəsinin sədri, MDB Baş katibinin müavini, Avrasiya İqtisadi Komissiyasının Statistika Departamentinin direktor müavini, üzv dövlətlərin statistika qurumlarının rəhbərləri və rəhbər müavinləri iştirak ediblər.

Şuranın iclasında "MDB Statistikasının İnkişafı" Layihəsinin gedişatı və bu Layihənin 2026-cı il üçün iş planı, Müstəqil Dövlətlər Birliyinin Dövlətlərarası Statistika Komitəsinin 2026-cı il üçün İş Proqramı, MDB iştirakçısı olan dövlətlərin Statistika Xidmətləri Rəhbərləri Şurasına 2026-cı ildə sədrlik və Şuranın 75-ci iclası haqqında məsələlər müzakirə edilib, həmçinin MDB Üzv Dövlətlərinin Statistika Xidmətləri Rəhbərləri Şurasının 74-cü iclası haqqında kommünike qəbul olunub.

# Ermənistanı seçim və dilemma qarşısında qoyan TƏZYİQLƏR

***Ermənistanın baş naziri Nikol Paşinyanın Almaniyaya və oradan da birbaşa Rusiyaya yollanması ilə bağlı müzakirələr dünya mətbuatının gündəmində səbəbsiz olaraq yer almır. Səbəb təbii ki, bəllidir və rəsmi İrəvanın "iki stulda oturmaq cəhdləri" Avropa İttifaqının heç də xoşuna gəlmədiyi sirr deyil. O da sirr deyil ki, məhz iki tərəf arasında seçim qarşısında qalan Ermənistanın hərdən məhz Rusiyaya da "üz tutması", əslində, yumşaq şəkildə desək, heç də avropalıları qane etmir və hətta seçim qarşısında qalan ölkə Aİ tərəfindən göstərilməkdə olan təzyiqlə barışmaq məcburiyyətində də qalır.***

İrəvanın illərdir davam edən "iki stulda oturmaq cəhdlərinə" Brüsselin aqressiv şəkildə yanaşması məsələnin mahiyyətini ortaya qoyur. Belə görünür ki, Brüssel buna son qoymaq qərarına gəlib və bunu gizlətmir də. Avropa İttifaqının Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaja Kallasın Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsinin növbədənkənar iclasında səsləndirdiyi sərt bəyanatlar qeyd olunanları təsdiq edir. Məhz elə buna görə də Rusiya ilə Avropa İttifaqı arasında gələcək xarici siyasət kursu ilə bağlı indi Ermənistan sözün əsl mənasında, dilemma qarşısındadır.

"Rusiya və onun müvəkkilləri gələn il keçiriləcək seçkilər ərəfəsində Ermənistan da daxil olmaqla dezinformasiya kampaniyalarını gücləndirirlər", deyə Kaja Kallasın söylədikləri çox məqamdan xəbər verir. Özü də onun söylədiklərinin timsalında belə bəyanatlar birinci də deyil. Heç sonuncu olacağını da qətiyyən iddia etmək olmaz. Hər halda, Kaja Kallasın Ermənistan üçün etdiyi çağırışlar da bunu deməyə əsas verir. Yəqin ki, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın iştirak etdiyi Aİ-Ermənistan Əməkdaşlıq Şurasının iclasından sonra keçirilən mətbuat konfransında Kallasın İrəvanı Rusiyaya qarşı sanksiyalara qoşulmağa çağırması qeyd olunanları birmənalı şəkildə təsdiq edir. "Dünya nizamı dəyişir. Strateji məvqelərin Aİ-nin ümumi xarici siyasəti ilə uyğunlaşdırılması İttifaqın tərəfdaşları, o cümlədən



Ermənistan üçün çox vacibdir. Hazırda Ermənistanın xarici siyasəti ilə Aİ qərarları arasında uyğunluq səviyyəsi 37% təşkil edir", kimi ifadələr rəsmi İrəvan üçün sanki bir xəbərdarlıqdır. Ələlxüsus da 37% heç də adi statistik rəqəm olaraq bildirilmir. Hər halda, Avropa Komissiyasının vitse-prezidentinin təkidli bəyanatlarını Ermənistan rəhbərliyi çox yaxşı başa düşür. Başa düşür ki, bu, birbaşa olaraq, Brüsselin açıq-aydın mövqeyidir. Təkcə mövqe deyil, bu həm də tələbidir. Tələb isə ondan ibarətdir ki, məhz Ermənistanın xarici siyasəti tam şəkildə Avropa İttifaqının xəttinə uyğun şəkildə aparılmalıdır. Bu tələb rəsmi İrəvanı məhz Avropa prioritetləri və prinsiplərinə uyğun hərəkət etmək kimi bir dilemma qarşısında qoymaqla, çox böyük təzyiq deməkdir.

Sual yarana bilər ki, bəs Ermənistan niyə seçim, dilemma qarşısındadır və nə səbəbə bütün bunlar təzyiq hesab olunur? Yəni, bütün bunları rəsmi İrəvan təzyiq olaraq qəbul etməyə bilərmi? Məsələ burasındadır ki, söhbət maliyyə məsələlərindən gedir və Avropa İttifaqının nəyə işarə etdiyini Ermənistan tərəfi digərlərindən də çox yaxşı başa düşür. Başa düşür ki, təzyiq məhz maliyyə alətləri ilə dəstəklənir. Özü də çox acınacaqlı bir durumda olan, maliyyə resurslarına böyük ehtiyacı olan ölkə üçün bu maliyyə alətləri ilə təzyiqin nə demək olduğu yəqin ki, hər kəsə aydındır. Onsuz da maliyyə üçün bütün dünyaya əl açan bir ölkəyə belə bir təzyiq variantının nə demək olduğunu Aİ rəsmiləri də yaxşı bilirlər və elə buna görə də belə təzyiqə əl atılır.

Görünən odur ki, Avropa İttifaqı regionda öz maraqlarını təmin etmək niyyətindədir və bu baxımdan da Rusiyanı məhz Cənubi Qafqazda qətiyyən görmək fikrində deyil və bunu son vaxtlar heç gizlətmir də. Şübhəsiz ki, məhz seçki öncəsi rəsmi İrəvan üçün daha həssas məqam sayılır və bu mənada da Ermənistanın təzyiqlərin nə demək olduğunu anladığını da Aİ nəzərə alaraq belə təzyiqlər edir. Bütün bunların fonunda rəsmi İrəvan çox ciddi seçim qarşısındadır, çünki Rusiyaya qarşı sanksiyalara da qoşula bilmir. Başa düşür ki, Rusiyanın da Ermənistanda özünəməxsus rıçaqları mövcuddur və ruslar istənilən anda qarışıqlıq yaradaraq, çevriliş belə edə bilərlər. Bax elə seçim qarşısında qalmaq dedikdə də bu nəzərdə tutulur. Həm də axı, Ermənistan iqtisadiyyatının birbaşa olaraq Rusiya bazarından asılı olduğu da bir reallıqdır və bu reallığı da rəsmi İrəvan başa düşür. Rəsmi İrəvanın çox acınacaqlı bir seçim qarşısında qaldığını təsəvvür etmək üçün Ermənistanın həm Rusiya bazarından, həm də Avrasiya İqtisadi İttifaqının mexanizmlərindən asılı olduğunu düşünmək kifayət edir. Yəqin ki, maliyyənin, vəsaitlərin əldə edilməsinin Ermənistan üçün nə dərəcədə həlledici və taleyüklü olduğunu fikirləşdikdə, həmin ölkə hakimiyyətinin niyə "iki stulda oturmaq cəhdləri" etdiyini də başa düşmək çətin deyil. Nəyə görə və hansı cəhdlər edilməsi Avropa İttifaqını qətiyyən maraqlandırmadığı üçün təzyiqləri heç də azaltmaq barədə düşünmür də. Ermənistan rəhbərliyi də bu arada guya ki, çoxvektorlu siyasət yürütdüyünü bəyan edir. Əslində, imitasiya edir və bunu da ona görə edir ki, hər iki tərəfi qıcıqlandırmasın və təzyiqlərdən mümkün qədər yaxa qurtarsın. Baş nazir Nikol Paşinyan dəfələrlə Ermənistanın həm Rusiya, həm də Qərblə əlaqələrin inkişafına yönəlmiş praqmatik, çoxvektorlu kursunu bəyan etməsi vəziyyətdən çıxmaq üçündür. Amma heç də bu kurs Avropa İttifaqını qane etmir və Brüsseldən gələn sərt siqnallar Nikol Paşinyanın belə kursunun qətiyyən qəbul edilmədiyini, hesaba belə alınmadığını göstərir. Bir növ rəsmi İrəvana izah edilir ki, seçim qarşısında, dilemma qarşısında olduğunun fərqində olsun və təzyiqlər də səbəbsiz deyil...

***İnam Hacıyev***

# "Ulu Öndər Heydər Əliyev yolunun Müzəffər davamçısı"

**"Konstitusiya və Suverenlik İli" çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) və Azərbaycan Texniki Universitetinin birgə təşkilatçılığı ilə "Ulu Öndər Heydər Əliyev yolunun Müzəffər davamçısı" adlı tədbir keçirilib.**

Tədbirdən öncə Universitetin inzibati binasında müasir müstəqil Azərbaycan Respublikasının qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü ziyarət olunaraq əziz xatirəsi ehtiramla yad edilib.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edən Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyev qeyd edib ki, dövlət idarəçiliyində liderin fəaliyyəti uğurlu inkişafın əsası olmaqla bərabər, həm də sabitliyin möhkəmləndirilməsi, davamlı yüksəlişin təmin edilməsi və vətəndaş cəmiyyətinin bərqərar olması baxımından çox mühüm amildir: "Prezident İlham Əliyevin "Bizim sözümüz imzamız qədər dəyərlidir" fikri Onun verdiyi vədlərin əməli fəaliyyətdə öz əksini tapdığını göstərir. Dövlətimizin başçısının xalqa verdiyi vədləri yerinə yetirməsinin ən parlaq nümunəsi torpaqlarımızın işğaldan azad olunması və üçrəngli bayrağımızın bütün ərazilərimizdə ucaldılmasıdır. Hər bir azərbaycanlının Prezidenti olacağını vəd edən və ötən müddət ərzində sözünün sahibi olduğunu əməli işi, genişmiqyaslı fəaliyyəti ilə sübuta yetirən Prezident İlham Əliyev xalqın yüksək rəğbət və məhəbbətini qazanıb. Dövlət başçısının Azərbaycanın milli maraqlarını daim uca tutması xalqımızı Onun ətrafında sıx birləşdirib".





















V.Vəliyev qeyd edib ki, Prezident İlham Əliyevin məqsədyönlü siyasəti ölkənin inkişafında, eləcə də milli maraqların qorunmasında öz əksini tapır: "Bu siyasət həm də Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsinə və xalqın rifahının yüksəlməsinə xidmət edir. Prezident İlham Əliyevin ölkəmizə böyük uğurlar qazandırmış daxili və xarici siyasəti Azərbaycanı dünyada sabitlik adasına, multikulturalizm mərkəzinə, qlobal tədbir və görüşlərin keçirildiyi təhlükəsiz məkana çevirib. Əminliklə deyə bilərik ki, Prezident İlham Əliyevin fəaliyyəti Azərbaycanın daha da güclənməsinə xidmət edəcək".

Çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qeyd edib ki, çağdaş Azərbaycan reallığı xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əbədiyaşar ideyaları ilə bağlıdır: "Ulu Öndər Heydər Əliyev milli maraqlara əsaslanan uzaqgörən siyasəti ilə Azərbaycanın müstəqilliyinin daimiliyi, dönməzliyi və əbədiliyini təmin etməklə xalqımıza çoxsaylı uğurlar qazandırmışdır. Bu gün iftixarla qeyd edirik ki, hər birimizin sonsuz qürur mənbəyi olan müasir Azərbaycan dövləti Ümummilli Lider Heydər Əliyevin millətimizə ən böyük mənəvi-siyasi mirasıdır".

Tahir Budaqov qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin Ulu Öndərin tükənməz dövlətçilik irsini müasir çağırışlara uyğun zənginləşdirərək həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində misilsiz nailiyyətlər əldə edilmiş, xalq-iqtidar birliyi daha da möhkəmlənmiş, Azərbaycan regionda lider dövlətə çevrilmiş, dünyada etibarlı və konstruktiv tərəfdaş kimi tanınmışdır: "Ən əsası, iqtisadi gücünü, siyasi nüfuzunu, hərbi qüdrətini artıran, beynəlxalq mövqeyini möhkəmləndirən Azərbaycan öz ərazi bütövlüyü və tam suverenliyini bərpa etməklə Zəfər zirvəsinə yüksəlmişdir. Ata vəsiyyətini və xalqa verdiyi bütün vədləri şərəflə yerinə yetirən Prezident İlham Əliyevi qalib və qüdrətli dövlətə çevirməklə bərabər, strateji hədəfləri ardıcıl olaraq gerçəkləşdirərək nəinki ölkəmiz, bütövlükdə regionumuz üçün yeni perspektivlər yaratmışdır".

YAP Sədrinin müavini bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müstəqil və qətiyyətli siyasəti ölkəmizdə ictimai-siyasi sabitliyin və milli birliyin qorunmasına, sosial-iqtisadi inkişafın davam etməsinə, əhalinin rifahının daha da yaxşılaşmasına, Qarabağ və Şərqi Zəngəzura Böyük Qayıdışın uğurla həyata keçirilməsinə və nəhayət, bölgədə sülh, təhlükəsizlik və çoxşaxəli əməkdaşlığın bərqərar olmasına hədəflənmişdir: "Ulu Öndərimizin dahiyanə söylədiyi bir fikir var: "Vaxt gələcək, Azərbaycan dünyaya günəş kimi doğacaq". Bu gün məhz Ulu Öndər Heydər Əliyevin yaratdığı güclü təməllər üzərində Prezident İlham Əliyev müasir, suveren, bütöv və yeni Azərbaycanı qurub. Şübhə yoxdur ki, öz Müzəffər Liderinin ətrafında sıx birləşən xalqımız bundan sonra da milli məqsədlərə nail olaraq daha qüdrətli Azərbaycan naminə yeni qələbələrə imza atacaqdır".

Sonra çıxış edənlər Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsi və Prezident İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində qazanılan uğurlardan bəhs ediblər.

Tədbirdə Yeni Azərbaycan Partiyasının sıralarına yeni qəbul olunmuş Universitet əməkdaşlarına üzvlük vəsiqələri təqdim edilib.

Daha sonra Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

Sonda bədii hissə təqdim olunub və xatirə şəkli çəkdirilib.

# Humanizmə və xeyirxahlığa söykənən amnistiya aktı

## Prezident İlham Əliyevin "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan olunması təşəbbüsü 20 mindən çox adama şamil ediləcək

Azad, demokratik, hüquqi dövlət quruculuğu yolunda inamla irəliləyən Azərbaycan qarşı qoyulan bütün hədəflərinə nail olmaqdadır. Bu prinsip, önəmli siyasət Azərbaycan dövlətinin qurucusu və memarı, xalqımızın xilaskarı Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub və xeyirli, gərəkli dövlət siyasətini Prezidentimiz, Fateh Sərkərdə İlham Əliyev uğurla davam etdirməkdədir. Hər bir qəbul edilən qanunlar, imzalanan Prezident Fərman və Sərəncamları əhalinin daha firavan və təhlükəsiz yaşamasına, hüquq və azadlıqlarının müdafiəsinə hesablanır.





Məlum faktdır ki, müstəqilliyimizin ilk illərində insan hüquq və azadlıqları kobud şəkildə pozulurdu. Bu azmış kimi əhalinin təhlükəsizliyinin qorunmasında, ərzaqla təminatında və digər zəruri məsələlərin həllində ciddi problemləri vardı 1992-ci ildə hakimiyyəti zorla ələ keçirən AXC-Müsavat cütlüyü səhv, yanlış siyasəti ilə ölkəni uçuruma sürüklədi. İqtidarın səriştəsizliyi nəticəsində Azərbaycan iqtisadi böhranın məngənəsində boğulur, ölkə parçalanırdı. Dövlət müstəqilliyinin itirilməsi, vətəndaş müharibəsinin açılmaz olduğu bir vaxtda ölkə ziyalıları bir araya gələrək Ulu Öndər Heydər Əliyevin Bakı şəhərinə gəlib hakimiyyət sükanı arxasına keçməsi çağırışını etdilər. Bununla bağlı 1992-ci ilin aktyabrın 16-da "91" lərin "səs" qzeeti vasitəsi ilə Dahi Öndər Heydər Əliyevə müraciəti ünvanlandı. Ulu Öndər Heydər Əliyev xalqın çağırışına 1992-ci il oktyabrın 24-də "Səs" qzeeti vasitəsi ilə ziyalıların müraciətinə cavab verməklə münasibət bildirdi. 1993-cü il iyunun 15-də Dahi Öndər Heydər Əliyev Bakıya gəldi, ölkəmizi xaosdan, anarxiyadan, parçalanmaqdan, yox olmaqdan xilas etmək üçün gərgin fəaliyyətə başladı.

### İnsan hüquq və azadlıqlarının müdafiəsi sahəsində atılan mütərəqqi addımlar

Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi müdrik siyasət nəticəsində qısa müddətdə ölkəmizdə siyasi sabitliyə, iqtisadi dirçəlişə nail olundu. Bütün sahələrdə olduğu kimi, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində Dahi Öndərimiz Heydər Əliyev mütərəqqi addımlar atdı, qərar və fərmanlar imzaladı. Milli sərvətimiz olan yeni konstitusiyanın qəbul edilməsi xalqımıza əvəzsiz xəzinə oldu. Müstəqil Azərbaycanımızın ilk Konstitusiyası Dahi Öndərimiz Heydər Əliyevin rəhbərliyi ilə hazırlandı və 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edildi. İnsan haqlarının təminatına və ümumbəşəri humanist dəyərlərin bərqərar olmasına xüsusi önəm verən Dahi Öndərimiz Heydər Əliyev ailələrə böyük sevinc, cəmiyyətə məmnunluq bəxş edən əfv və amnistiya aktları imzaladı. Bu baxımdan demək olar ki, Ulu Öndər Heydər Əliyev tərəfindən 1995-2003-cü illərdə 32 əfv fərmanı imzalanıb. Bunun nəticəsində 3 mindən artıq şəxs bağışlanaraq cəzalarından azad edilib. Həmçinin 1993-2003-cü illərdə 7 dəfə amnistiya elan edilib. Amnistiya aktları törətdiyi cinayət əməlindən səmimi peşmançılıq hissi keçirən 78 mindən çox insana şamil edilib, 21 min 325 nəfər cəzasının çəkilməmiş hissəsindən azad olunub. Dahi Öndərimiz Heydər Əliyevin təməlini qoyduğu humanizm ənənələrini Prezident İlham Əliyev davam etdirək bayram ərəfəsində, əlamətdar tarixi günlərdə əfv sərəncamları imzalayır. Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın irəli sürdüyü təşəbbüs nəticəsinə 2007-ci il mayın 8-də Milli Məclisdə amnistiya aktı qəbul edilib. Konstitusiya dəyərləri və hüquqi islahatlar kontekstində qəbul edilən amnistiya ümumilikdə 9000 nəfərə şamil olunub. Onlardan 1500 nəfər azadlığa buraxılıb, 7500 nəfərin isə cəza müddəti azaldılıb. Milli Məclis 2009-cu il martın 17-də Mehriban Əliyeva tərəfindən təqdim edilən "Novruz bayramı ilə əlaqədar amnistiyanın elan olunması haqqında" qanun layihəsini qəbul edib. Həmin akt 9 min məhbusa tətbiq olunub, 1700 məhbus azadlığa buraxılıb.

### On minlərlə insana bəxş edilən azadlıq

Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın daha bir təşəbbüsü 2013-cü il 7 may tarixində qəbul edilən qərarla 10040 məhkum barəsində amnistiya tətbiq edilib. 2016-cı ildə Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 28 May - Respublika Günü münasibətilə də amnistiya elan edilib. Amnistiya qərarı ümumilikdə 10868 nəfərə şamil olunub. Amnistiya qərarı azadlıqdan məhrumetmə yerlərində cəza çəkən 3545 məhkuma tətbiq edilib. Onlardan 2842 məhkum cəza çəkməkdən azad olunub, 635 məhkumun cəzasının çəkilməmiş müddəti 6 ay azaldılıb və 68 məhkumun narkomaniyadan məcburi müalicəsi müvafiq məhkəmənin qərarı ilə ləğv edildikdən sonra onlar azad edilməsi qərara alınıb. 2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə elan edilən amnistiya aktı ən əhatəli aktlardan biri olub. Bu aktdan 15 minə yaxın şəxs faydalanıb. Təşəbbüs Azərbaycanın Birinci xanımı Mehriban Əliyeva tərəfindən irəli sürülüb.

Zəfər günü münasibətilə 2021-ci ildə amnistiya elan edilməsi haqqında qərar qəbul edilib. Həmin aministiya aktı 17 min 267 şəxsə şamil olunub. Bu qərar tətbiq olunan şəxslərin sayına görə həmin ilə qədər qəbul edilmiş ən geniş amnistiya olub. Amnistiyanın tətbiq olunduğu şəxslərdən 733-ü Vətən müharibəsinin iştirakçısı, 837-si qadın, 65-i yetkinlik yaşına çatmayandır. Amnistiya qərarı azadlıqdan məhrumetmə yerlərində cəza çəkən 5971 məhkuma tətbiq edilib. Onlardan 2710 məhkum azadlıqdan məhrumetmə cəzasından azad olunub, 3261 məhkumun cəzasının çəkilməmiş müddəti 6 ay azaldılıb. Həmçinin azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzalara məhkum edilmiş 8559 şəxsə amnistiya tətbiq edilib. Onlardan 5722 məhkum cəzadan azad edilib, 2837 məhkumun cəzası azaldılıb. Belə ki, azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş 1909, islah işləri cəzasına məhkum olunmuş 2471, ictimai işlər cəzasına məhkum edilmiş 86, cərimə cəzasına məhkum edilmiş 1202 və digər cəzalara məhkum olunmuş 54 şəxs bu cəzalardan azad edilib. Şərti məhkum edilmiş, cəzasının çəkilməsi təxirə salınmış və cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş 62 məhkum barəsində də amnistiya tətbiq olunub. Bundan əlavə, məhkəmələrin icraatında olan işlər üzrə 890, ibtidai istintaq orqanlarının icraatında olan işlər üzrə isə 1785 şəxsə amnistiya tətbiq edilib.

### "Konstitusiya və Suverenlik İli" də elan olunan amnistiya

Məlum olduğu kimi, 2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilib. Bu il Konstitusiyanın qəbul edilməsinin 30, Qələbəmizin isə 5-ci ildönümüdür. Tarixi əlamətdar hadisələrlə bağlı Azərbaycan Prezidenti İlham Əliyevin Amnistiya elan edilməsi təşəbbüsünü irəli sürüb. Sayca 13-cü olan Amnistiya aktı 20 mindən çox adama şamil ediləcəyi gözlənilir. Bunlardan 5 mindən artıq məhkumun azadlıqdan məhrumetmə cəzasından azad ediləcəyi gözlənilir. Azadlıqdan məhrum edilmiş 3 mindən çox şəxsin isə cəzası azaldılacaq. Bundan başqa, 7 mindən artıq məhkum azadlığın məhdudlaşdırılması cəzasından, təxminən 4 minə yaxın şəxs alternativ cəzalardan (islah işləri, ictimai işlər, cərimə, şərti cəza) azad olunacaq.

Milli Məclisə təqdim olunmuş Amnistiya aktının layihəsinə əsasən, Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak etmiş şəxslərin, eləcə də bu əməliyyatlarda həlak olan və ya xəbərsiz itkin düşənlərin yaxın qohumlarının, Ermənistanın mülki əhaliyə qarşı hərbi təxribatı nəticəsində əlil olanların, qadınların, 60 yaşına çatmış şəxslərin, cinayət törədərkən yetkinlik yaşına çatmayanların və s. kateqoriyadan olanların da cəzadan və ya cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulur.

Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi bu kimi xeyirxah və müdrik siyasət insanlarda özünə inam, dövlətə sədaqətli olmaq hissi yaradır. Təbii ki, azadlığa çıxan istənilən insan Prezidentin onlara göstərdiyi yüksən etimadı, humanist mövqeyini lazımınca dəyərləndirərək, bir daha səhvlərə yol verməyəcək. Bu da cəmiyyətin sağlam cəmiyyət olaraq formalaşmasına və inkişafına yeni bir təkandır. 30 il erməni işğalı altında olmuş Qarabağı azad edib, xalqa böyük qürur yaşadan Fateh Sərkərdə, Prezident İlham Əliyev əfv və amnistiya təşəbbüsləri ilə çıxış edib, minlərlə ailəyə sevinc bəxş etməklə həm də mərhəmətli, xeyirxah və bağışlamağı bacaran ədalətli Prezident olduğunu bir daha təsdiqləyir. Belə bir adil dövlət başçısının rəhbərliyi ilə Azərbaycan dövləti hələ çox qələbələrə, zəfərlərə imza atacağı şübhəsizdir.

***İLHAM ƏLİYEV***

## Avropa İttifaqı Rusiyanın pulu ilə Ukraynanı silahlandırır...

### Mətləb Salahov: "Rusiyanın dondurulmuş aktivlərindən 210 milyard avronu Ukraynaya verməklə Aİ Moskva ilə açıq qarşıdurmaya start verir"



"Artıq açıq-aşkar görünür ki, Avropa ittifaqı (Aİ) həm hazırkı Donald Tramp Administrasiyası ilə, həm də Rusiya ilə qarşıdurma vəziyyətindədir. Hazırkı ABŞ prezidentini Vladimir Putinin siyasi şəriki kimi dəyərləndirən Aİ liderləri, D.Trampın Moskva ilə birgə Qərb əleyhinə hazırkı mövqeyindən qıcıqlanıblar. Aİ, özünü dünya sülh elçisi kimi təqdim etməyə çalışan və tarixə "müharibə bitiricisi" kimi daxil olmaq istəyən D.Trampın Ukraynada V.Putinin şərtləri əsasında sülh elan edilməsinə qarşı çıxır. Günü bu gün Aİ artıq bütün diplomatik jestləri bir kənara ataraq Rusiya ilə açıq mübarizə formatı seçib."

Bu fikirləri SİA-ya şərhində jurnalist-ekspert Mətləb Salahov bildirib. Onun fikrincə, D.Trampın kürəkəninin hazırladığı 28 bəndlik sülh planına qarşı çıxan Aİ liderləri, Ukraynanı "qoca qitə" üçün Rusiyaya qarşı əsl sipər halına gətirməyə çalışırlar. Onlar anlayırlar ki, Ukraynanın Rusiya şərtləri altında təslim edilməsi Moskvanı digər Avropa ölkələrinə hücum planlarına həvəsləndirəcək. "Artıq Aİ dondurulmuş Rusiya aktivlərindən beş il ərzində 210 milyard avronun Ukraynanın silah təchizatı üçün və digər Aİ ölkələrinin ehtiyacları üçün ayrılması barədə qərar verib. Bu o deməkdir ki, qurum Rusiya ilə açıq qarşıdurmaya və ABŞ-ın iştirakı olmadan öz təhlükəsizliyi üçün Moskvaya qarşı hücum siyasətinə başlayır.

Əslində, Almaniya Kansleri Fridrix Merz V.Putinin Avropaya qarşı yeni SSRİ planı barədə xəbərdarlıq etməklə, artıq Moskva və Qərb arasında kritik gərginliyin siqnalını vermiş oldu. Əlbəttə, Kremldə 210 milyardlıq dondurulmuş aktivin Kiyevə "hədiyyə" edilməsinə sevinməyəcəklər. Amma Rusiya əl-qolu bağlı da dayanmayacaq. Çünki bu, kifayət qədər ciddi rəqəmdir və Aİ rəhbərləri məhz V.Putinin Sankt-Peterburq uşaqlıqdan öyrəndiyi "döyüş qaçılmazdırsa, ilk sən hücum et" prinsipini işə salacaqlar. Məncə, hələ 3 il prezidentlik qoltuğunda oturacaq D.Trampdan əlini üzən Avropa liderləri, Moskva ilə açıq mübarizəyə atılıblar. Nə olacağını isə, əlbəttə, zaman göstərəcək".

***Afət Tahirqızı***

# İnformasiya texnologiyalarının cəmiyyətdə rolu

**Prezident İlham Əliyev:** "HƏR BİR ÖLKƏNİN UĞURLU, DAYANIQLI İNKİŞAFI ÜÇÜN İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARI SAHƏSİ HƏLLEDİCİ ROL OYNAYACAQDIR"



***Azərbaycanda həyata keçirilən dövlət siyasəti, reallaşan dövlət proqramları, aparılan islahatlar, yeni layihələrin icrası ölkəmizi müasir məkana çevirməklə yanaşı, onun dünyada tanıdılmasına geniş imkanlar açıb. Mövcud inkişaf nəticəsində müasirləşən, modernləşən Azərbaycan innovasiyalar, informasiya-kommunikasiya texnologiyaları, kosmik əlaqələndirmələr ölkəsi kimi dünayda özünəməxsus yer qazanıb. Azərbaycanda informasiya təhlükəsizliyi təmin olunub.***

İnformasiya təhlükəsizliyi məsələləri Azərbaycan Respublikasının milli təhlükəsizliyinin əsas tərkib hissələrindən biridir. Bu sahədə normativ-hüquqi bazanın formalaşması informasiya cəmiyyəti quruculuğunda prioritet məsələlər sırasındadır. Azərbaycanda informasiya təhlükəsizliyinin təmin edilməsinin qanunvericilik bazasının formalaşdırılması və inkişaf etdirilməsi istiqamətində bir sıra mühüm qanunlar, normativ aktlar qəbul edilib. Ölkənin sosial-iqtisadi həyatında mühüm rol oynayan informasiya-kommunikasiya texnologiyalarının inkişafı qabarıq şəkildə nəzərə çarpır. Azərbaycan Respublikasında informasiya-kommunikasiya texnologiyaları (İKT) sahəsindəki fəaliyyət Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi strateji xətt üzrə uğurla davam etdirilir. Ulu Öndərin 2003-cü ildə təsdiq etdiyi "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" bu istiqamətin ölkəmiz üçün vacibliyini və əhəmiyyətini vurğulayan ilk rəsmi sənəd olmuşdur. Müasir dövrdə və gələcək perspektivdə İKT-nin əhəmiyyəti ön plana keçir. Müasir informasiya texnologiyaları ölkənin hərtərəfli inkişafı, əhalinin intellektinin yüksəldilməsi, həmçinin dünyada baş verən inteqrasiya proseslərinə daha aktiv cəlb olunması istiqamətində respublikamızın qarşısında yeni imkanlar açır.

Bu sahədə əlaqədar qurumlar tərəfindən konseptual, təşkilati, elmi-metodoloji, qanunvericilik, maddi-texniki əsasların yaradılması üzrə iş aparılır. İnformasiya-kommunikasiya texnologiyaları hər bir ölkənin sosial-iqtisadi həyatına geniş nüfuz etdiyindən, müstəqil Azərbaycanın qarşısında duran mühüm vəzifələrdən biri də, məhz qlobal informasiya məkanında layiqli yer tutması və inteqrasiyası idi.

Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev, ölkəmizin bütün sahələrinə olduğu kimi, informasiya-kommunikasiya texnologiyaları sahəsinin inkişafına da önəm verərək, bu sahənin inkişafına yönəlmiş dövlət proqramları və zəruri islahatları həyata keçirməyə başladı. Ölkəmizdə həyata keçirilən dövlət siyasətinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu göstərən "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramının (Elektron Azərbaycan)" təsdiq edilməsi haqqında ölkə başçısının məlum Sərəncamı milli strategiyadan irəli gələn vəzifələrin yerinə yetirilməsi, respublikanın informasiya cəmiyyətinə keçidinin təmin edilməsi baxımından əhəmiyyətli rol oynadı. Görülən işlərin məntiqi olaraq, artıq ölkəmizdə elektron hökumətin yaradılması, informasiya təhlükəsizliyi və digər məsələlərin həlli istiqamətində mühüm addımlar atılıb.

## CƏMİYYƏTİN ŞƏFFAFLIĞI

Bu gün əbəs deyil ki, İKT respublikada korrupsiya ilə mübarizə, cəmiyyətdə şəffaflığın və demokratiyanın inkişaf etdirilməsi üçün əlverişli vasitə olaraq qəbul edilir. Ölkədə "Elektron hökumət" portalı fəaliyyət göstərir və bu portala qoşulmuş dövlət qurumlarının elektron xidmətlərinin "bir pəncərə" prinsipi əsasında əhaliyə təqdimi də görülən işlərin məntiqi davamıdır. Bütün bunlarla yanaşı, vətəndaşlara xidmətlərin daha keyfiyyətli, rahat, vahid məkandan və müasir innovasiyaların tətbiq etməklə həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində "ASAN xidmət" mərkəzləri yaradıldı ki, bu da, qısa müddətdə özünü doğrultdu. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin prioritet elan olunması, 2008-ci ildə "Azərbaycanda kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması", 2009-cu ildə ölkədə "Kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında" Prezident İlham Əliyevin sərəncamları bu sahənin inkişafına dövlət səviyyəsində göstərilən diqqətin əyani sübutudur.

Azərbaycanda İKT-nin inkişafı ilə bağlı ən prioritet sahələrdən biri olan kosmik sənayenin inkişaf etdirilməsi istiqamətində qısa bir zamanda mühüm addımlar atılıb. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, "Hər bir ölkənin uğurlu, dayanıqlı inkişafı üçün informasiya-kommunikasiya texnologiyaları sahəsi həlledici rol oynayacaqdır. Mən buna əminəm. Mən çox şadam ki, biz bu istiqamətdə bütün işləri planlı, məqsədyönlü şəkildə aparırıq. Bütün addımları atırıq ki, ölkəmiz daha da güclənsin, Azərbaycan daha da müasir dövlətə çevrilsin".

Azərbaycan, Avropa və Amerika mütəxəssislərinin birgə səylərinin nəticəsi olan, amma Azərbaycan adı ilə ərsəyə gələn, Azərbaycan bayrağının təsviri ilə kosmosa göndərilən "Azərspase-1" telekommunikasiya peykinin orbitə çıxarılması ölkəmizin daha bir nailiyyəti kimi tarixə düşdü. Azərbaycan həyatında tarixi hadisəyə çevrilən ilk telekommunikasiya peyki "Azerspace-1" və yer səthinin müşahidə peyki "Azersky"in orbitə çıxarılması Azərbaycanın kosmik ölkələr sırasında yer alması ilə nəticələndi. Bununla bağlı Azərbaycan Prezidenti təbrikində bildirmişdir: "Doğrudan da tarixi bir gündür, böyük nailiyyətdir, dövlətimizin böyük qələbəsidir. Bu hadisə onu göstərir ki, müstəqil Azərbaycan dövləti sürətlə, hərtərəfli inkişaf edir və biz artıq kosmik klubun üzvüyük". Əlbəttə ki, bu böyük əhəmiyyətə malikdir.

"Azerspace-1" peyki Afrika, Avropa, Mərkəzi Asiya və Yaxın Şərqdə 50-dən artıq ölkəni birləşdirən məkanda mühüm informasiya ötürücüsü roluna malikdir. Mənbələrdə qeyd olunduğu kimi, çəkisi təxminən 3 200 kiloqram olan "Azerspace-1" Malayziyanın "Measat Satellite Systems" şirkəti tərəfindən istifadə olunan və "Azərkosmos" ASC-yə icarəyə verilən 46° Şərq uzunluq dairəsində geostasionar orbitdə yerləşir. Peykimizin istismar müddəti azı 15 il təşkil edir.

## 450 MLN. DOLLARDAN ÇOX GƏLİR GƏTİRİLƏCƏK

Ötən müddətdə uğur əldə edilib. 2014-cü ildən "Azerspace-1" peyki vasitəsilə Azərbaycanın bütün televiziya və radio kanalları keyfiyyətli yayıma başlayıb. Həmçinin, tələb və rəqabətin artması, peyk tutumlarının bazar qiymətlərinə uyğun təklif olunması "Azerspace-1" peykinin əhatə etdiyi regionlarla əməkdaşlığı gücləndirməyə, eləcə də Livan, əfqan və ərəb bazarında fəaliyyət göstərməsinə şərait yaradıb. Hazırda "Azerspace -1" peyki vasitəsilə Azərbaycan, türk, ingilis, gürcü, fars, əfqan və digər dillərdə yüzdən artıq televiziya kanalı yayımlanır. "Azerspace-1" peyki regionda kifayət qədər tanınıb. Hazırda "Azerspace-1" peykinin resurslarının 60 faizdən çoxu kommersiya yönümlü istifadədədir. Azərbaycanın müdafiə və hərbi potensialının gücləndirilməsi işində "Azərsky" peykinin də xüsusi rolu vardır.

Məlumdur ki, Azərbaycanda kosmik sənayenin yaradılması iqtisadi cəhətdən böyük səmərə vəd edir. 2018-ci ilin sentyabr ayında orbitə buraxılan "Azerspace-2" peyki kommersiya istifadəsinə 2019-cu ildən başlanılıb və qısa bir müddətdə - iki il ərizində istifadəsindən 40 mln. ABŞ dolları gəlir əldə edilib. Vurğulayaq ki, layihə 190 mln. dollara başa gəlib. Peykin istismar müddəti isə 20 ildir. Onu da bildirək ki, peykin fəaliyyəti dövründə 450 mln. dollardan çox gəlir gətirməsi nəzərdə tutulub. Ölkəmizi daha böyük uğurlar gözləyir. Peyklərin orbitə çıxarılması Azərbaycanda kosmik sənayenin inkişafında uğurlu addımlardır. Dövlət başçısının qeyd etdiyi kimi, Azərbaycan, qısa müddət ərzində, dünyanın kosmik klubunun dəyərli üzvünə çevrilibdir. İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı uğurlu gələcəyimizin təminatıdır.

***Zümrüd BAYRAMOVA***

---



MƏTANƏT

# Xatırlama və xatırlatma

**Tez-tez Tiktokda, İnstagramda pişik və itinə ad günü keçirən insanlarla rastlaşıram. Elə dünən onlardan biri yenə itinə ad günü keçirirdi və ona tort da sifariş etmişdi. Şəklini də tortun üzərinə saldırmışdı. İtin əyni-başı da dəblə geyindirilmişdi. Bir sözlə, it ad gününə xüsusi olaraq hazırlanmışdı.**

Bu mənzərə mənə nələri xatırlatmadı?..

Keçən günlərdən birində küçə ilə gedirdim, qarşıda da bir ana, yanında da iki uşaq gedirdilər. Bir də gördüm ki, uşaqlardan biri dayanıb. Ana nə qədər edir bu uşağı çəkib apara bilmir. Elə bil uşağın ayaqları yerə kilidlənmişdi. Mən də bunlara tamaşa edirəm, bilmək istəyirəm görüm nə olub axı. Baxıram ki, uşaq yaxınlıqda satılan kartof qutabından istəyir, "al da, ay ana, nə olar, al da",- deyir, dəfələrlə təkrar edir. Ana isə sanki bu sözləri eşitmir. Gəl gedək, oğlum, alarıq. Sadəcə bu sözlər və dəfələrlə təkrarlanan yenə bu sözlər...

Vallah, mətləb mənə gün kimi aydın oldu. Amma risk edib yaxınlaşıb uşağa qutab ala bilmədim. Çünki anasının bunu necə qəbul edəcəyindən çəkindim. Həm də küçənin ortasında. Amma düz evə qədər ağlaya-ağlaya getdim.

***

Bir tanışım var. Bu yaxınlarda uşağının ad günü olacaqdı. Uşaq bəlkə də bir ay əvvəldən dayanmadan-durmadan "gələn ayın filan tarixində ad günüm olacaq",- deyirdi. Hər dəfə də anasından "ana, mənə tort alacaqsan, hə",-deyə soruşurdu. Anası da, "baxarıq",- dedikcə uşaq bunun heç də onu qane etməyən cavab olduğu üçün yenə də sualını təkrarlayırdı: ana tort alacaqsan mənə? Bəlkə on dəfə təkrarlayırdı. Mətləb aydındır. Daha sonra nə olduğunu söyləməyin yersiz olduğunu düşünürəm və söyləmirəm.

***

İllər öncə bir qonşum vardı. Təzə köçmüşdülər binaya. Necə deyərlər, qapı bir qonşu idik. Yaxşı qadın idi. Bir gün söhbət əsnasında məlum oldu ki, sabah onun ad günüdür. Mən də ona tort almağı düşündüm və aldım, apardım. O, tortu görəndə başladı ağlamağa. Sözün həqiqi mənasında, çox pis oldum. Bir anlığa nə üçün ağladığını düşünməkdən və min səbəb ağlıma gətirməkdən başqa çarəm olmadı. O isə ağlamağa davam edirdi. Qaldım belə. Nə edim, sadəcə baxıram, öz-özümə deyirəm ki, görək axırı nə olur.

Bir xeyli ağladı, sonra gözünün yaşını sildi, ayağa qalxdı, məni qucaqladı və dedi ki, bu gün 35 yaşım tamam olur. İlk dəfədir ki, ad günü tortum olur. Bu dəfə mən ondan da pis kövrəldim. Amma görməsin deyə göz yaşlarımı bayıra deyil, içəriyə axıtmalı oldum.

İtə keçirilən ad günü fonunda xatirələrim bir yana qalsın, hələ o saatlarda, dəqiqələrdə, anlarda minlərlə ehtiyaclı, illərlə tortun nə dadda olduğunu bilməyən uşaqları gözlərim önünə gətirdim. Kaş ki bunları çox tez-tez düşünə bilərdik. Kaş ki imkansızlıq ucbatından övladına tort, şirniyyat, oyuncaq nədir, çörək ala bilməyən insanları, uşaqları qarşısında gözükölgəli ata-anaları tez-tez xatırlaya bilərdik. Uşaq evlərində bəlkə də, yox, bəlkəsiz ad günləri qeyd olunmayan uşaqları bir anlıq xəyalımızdan keçirə bilərdik...

# Onları qəbul etmirlər, amma onlarsız da olmur

***Bir neçə gün öncə beynəlxalq ictimai rəy və araşdırmalar şirkəti olan "YouGov" yeni statistik araşdırma yayımladı. Şirkətin sorğusuna görə, bir çox avropalılar ölkələrindəki miqrantların çoxunun qeyri-qanuni olduğunu düşünür, lakin araşdırmalar göstərir ki, onların iddia etdiyinin əksinə qanuni miqrasiya daha çox yayılıb və miqrantlar həm yerli, həm də iqtisadi baxımdan həmin ölkələrin həyatında mühüm rol oynayır.***



Dünyada immiqrantlara qarşı aqressiya yüksəldikcə onların əmək faliyyəti ilə məşğul olmasında da təbii olaraq problemlər meydana çıxır. Bu səbəblə dekabrın 11-də Avropa ölkələri bu məsələni müzakirə ediblər. Hüquq müdafiəçilərinin İkinci Dünya Müharibəsindən bəri Avropa qanunvericiliyinin əsasını təşkil edən miqrantların müdafiəsini zəiflədəcəyini söylədiyi dəyişiklikləri nəzərdən keçirən rəsmilər qanunsuz sərhəd keçidlərinin azalmasını bildiriblər. Onlar Avropadakı əsas siyasi partiyaların immiqrasiya ilə bağlı narazılıqdan sui-istifadə edən ifrat sağçı siyasətçilərin irəliləməsinin qarşısını almaq üçün daha sərt miqrasiya siyasəti qəbul etməsi məsələsini müzakirə ediblər.

Şuranın baş katibi Alen Berset Fransanın Strasburq şəhərində keçirilən müzakirələrdən sonra jurnalistlərə bildirib ki, Avropa Şurasını təşkil edən 46 ölkənin üzvləri miqrasiyanın yaratdığı "çətinlikləri" qəbul edərək, Avropa İnsan Hüquqları Konvensiyasına və Avropa İnsan Hüquqları Məhkəməsinə hörmətlərini bir daha təsdiqləyiblər. Berset 75 illik konvensiyanı "canlı bir alət" adlandırıb. Millətlər konvensiyanın hüquq və azadlıqlarına sadiqliklərini bir daha təsdiqləsələr də, ölkələrin "təhlükəsizlik kimi milli həyati maraqları qorumaq" məsuliyyətini də qəbul ediblər.

Şuraya qarşı şikayətlərə baxan konvensiya və məhkəmə, İtaliya, Danimarka və Birləşmiş Krallıq da daxil olmaqla, bəzi üzv dövlətlər tərəfindən getdikcə daha çox tənqid olunur. Onlar qanunsuz miqrasiya ilə mübarizə aparmaq və cinayət törədən miqrantları deportasiya etmək üçün nə tədbir görüləcəyi baxımından çox məhdud hərəkətə malik olduqlarını iddia edirlər.

Berset əlavə edib ki, 46 ölkənin nazirləri indi may ayında qəbul ediləcək miqrasiya ilə bağlı siyasi bəyannaməni və insan qaçaqmalçılığının qarşısını almaq üçün yeni bir tövsiyəni müzakirə etməyə başlayacaqlar.

Bu arada, Danimarka və Böyük Britaniyanın baş nazirləri ötən həftə "Guardian" qəzetinə verdikləri açıqlamada bildirdilər ki, münaqişədən, müharibədən qaçanlar istisna, daha yaxşı iqtisadi imkanlar arxasınca gələn miqrantların ölkələrə girişinə mane olmaq üçün miqrasiya nəzarətinin daha sərtləşdirilməsinə ehtiyac var.

AB-nin sərhəd və sahil mühafizəsi agentliyi olan "Frontex"in məlumatına görə, miqrasiya siyasi gündəmdə yüksək yer tutsa da, AB-yə qeyri-qanuni sərhəd keçidləri bu ilin yanvar-oktyabr ayları arasında ötən ilin eyni dövrü ilə müqayisədə 22% azalıb. Agentlik ilin ilk 10 ayında 152.000 icazəsiz sərhəd keçidi qeydə alıb. Bildirilir ki, Avropaya miqrasiyanın əksəriyyəti qanunidir və bir çox miqrantlar viza ilə daxil olub və sonradan qalma müddəti bitib.

AB qanunsuz miqrasiyanın qarşısını almaq üçün milyardlarla avro xərcləyib, Aralıq dənizi və Atlantik okeanını keçməyə çalışan miqrantların qarşısını almaq üçün Afrika və Yaxın Şərq ölkələrinə pul ödəyib. Amma eyni zamanda, əhalinin yaşlanması və işçi qüvvəsinin çatışmazlığı ilə üzləşən Avropa ölkələri xarici işçiləri cəlb etmək və öyrətmək üçün proqramlara investisiya qoyurlar.

2024-cü ilin rəqəmlərinə görə dünyada beynəlxalq miqrantların sayı təxminən 304 milyon nəfərdir. Bəzi məlumatalara görə, ABŞ-də (2025 rəqəmlərinə görə) təxminən 53.3 milyon immiqrant var. Bu dünyada ən böyük immiqrant populyasiyası hesab edilir və bu rəqəm ABŞ əhalisinin təqribən 15.8 %-i deməkdir. BMT rəqəmlərinə görə miqrantların təxminən 48 % qadın və qızlardan, digər 52 % isə kişilərdir.

Qadınlar daha təhlükəsiz və daha yaxşı gələcək qurmaq üçün miqrasiya edirlər, lakin buna cəhd etmək onları böyük risklərə məruz qoyur. Gender bərabərsizliyi, irqi ayrı-seçkilik və informasiyaya qeyri-bərabər çıxış onların işini daha da qəlizləşdirir. İş axtarmaq, sağlamlıq problemlərində müraciət, dəstək proqramlarından istifadə buna görə daha çətin olur ki, belə maneələr qadınların təhlükəsiz miqrasiyasını, xidmətlərdən istifadəsini və hüquqlarının onlara verdiyi fürsətlərdən istifadəsini çətinləşdirir.

Bir çox bölgələrdə miqrant qadınlar kənd təsərrüfatı, yüngül və ya ağır sənaye sahələrində, ev və ya baxıcılıq kimi nəzarətin zəif olduğu və istismarın inkişaf etdiyi sektorlarda az maaşlı və qeyri-rəsmi işlər görürlər. Bu isə çox vaxt uzun iş saatlarına, əmək haqqının tutulmasına, məcburiyyət və zorakılığa səbəb olur deyə bilərik. Ədalətli iş rejimi, insani münasibət təəssüf ki hər miqrant üçün əlçatan olmur, bir çox hallarda dil maneələri və deportasiya qorxusu onları yalnış yollara da yönləndirir. Bu risklərə baxmayaraq, bəzən çarəsiz qaldıqda qadınlar köçməyə, miqrasiya etməyə məcbur qalırlar.

***Lalə Mehralı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Yerli ərzaq istehsalını necə artırmaq olar?

***Azərbaycan iqtisadiyyatının neftdən asılılığını azaltmaq üçün qeyri-neft sektorunun inkişafı vacibdir. Xüsusilə də, kənd təsərrüfatının ərzaq yönümlü perspektivli sahələrinin inkişafının ümumi daxili məhsulda və dövlət büdcəsinin gəlirlərində mühüm rol oynaya biləcəyi aydındır. Artıq qeyri-neft sektoru büdcə gəlirlərində neft sektorunu üstələyib. Alkin aqrar sektorda inkişaf sürəti arzuolunan həddə deyil.***





Aqrar sektorda əsas vacib sahə, ilk növbədə, ərzaq istehsalı ilə bağlıdır. Xüsusən də, taxılçılıq, heyvandarlıq, meyvə-tərəvəz və s. kənd təsərrüfatı sahələrinə daha böyük dövlət dəstəyinin göstərilməsi vacibdir. Bu, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından çox əhəmiyyətlidir. Üstəlik, bu sahədən yaxşı gəlir də əldə etmək olar.

Hazırda ölkəmizin əsas tələbat məhsullarına olan ehtiyacının təxminən yarısı idxal hesabına ödənilir ki, bu da riskli göstəricidir. Son illərdə dövlətin bu sahəyə böyük investisiyalar qoyduğu, böyük həcmdə subsidiyalar, kreditlər ayırdığı, müxtəlif dövlət proqramları vasitəsilə güzəştlər tətbiq etdiyi müşahidə olunur. Lakin hələlik, əldə olunan nəticəni qənaətbəxş adlandırmaq olmaz. Faktiki olaraq, əhalinin ərzağa olan tələbatının təxminən yarısı idxal hesabına ödənilir.

Ərzaq təhlükəsizliyi üzrə xüsusi proqram həyata keçirən ölkələrdə xarici amillərin mümkün təsirlərindən maksimal sığortalanma mümkün olur. Belə ölkələrdə əsas tələbat mallarının çox böyük hissəsi ölkənin özündə istehsal olunur və bu da xarici amillərin təsirlərini minimuma endirir.

Dövlət tərəfindən kənd təsərrüfatına güclü dotasiya ayrılır, əsas ərzaq məhsullarının istehsalı üçün stimullaşdırıcı tədbirlər görülür, fermerlərə güzəştlər edilir. Belə ölkələrdə dövlət tərəfindən fermerin məhsulunun bazar qiymətinə alınacağı haqda qabaqcadan müqavilə bağlanır.

Buraya kəndlinin öz məhsulunu sərbəst və maneəsiz şəkildə bazara çıxarma imkanlarını, aqrar sığortanı, möhtəkirliyin aradan qaldırılmasını və anti-inhisar tədbirlərini də əlavə etsək, belə ölkələrdə xarici amillərin təsiri ilə ərzaq qıtlığı və bahalaşmanın yaranması üçün heç bir səbəbin olmadığı aydın olar.

Nəzərə alsaq ki, Azərbaycan özünü kənd təsərrüfatı malları tam təmin etmək gücündədir və digər ölkələrlə müqayisədə bizim ölkənin daha yaxşı iqlim, həmçinin münbit torpaq imkanları var, o zaman aydın olar ki, mövcud potensialdan düzgün və səmərəli istifadə etməklə buna nail olmaq olar.

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən məsələyə kompleks yanaşma ilə strateji aqrar proqramlar hazırlanıb yerinə yetirsə daha məqsədəuyğun olardı. Nazirlik və Su Ehtiyatları Agentliyi su mənbələrinin səmərəli istifadəsi, su ehtiyatlarının artırılması, şoran torpaqların yararlı hala gətirilməsi kimi tədbirləri həyata keçirməklə aqrar sektorun inkişafına böyük töhfə verə bilərlər.

Qəribəsi odur ki, ölkə özünü meyvə-tərəvəzlə artıqlaması ilə təmin edə biləcək gücdədir, lakin bazarlar bu məhsulların xarici analoqları- genetik modifikasiya olunmuş məhsullarla doldurulub. Belə məhsullar yerli məhsullardan xeyli ucuz satılır. Yerli meyvə-tərəvəz bazarlarda baha satılsa da, bundan kəndli yox, alverçilər qazanır.

Kəndli məhsulunu min bir əziyyətlə əkib-biçəndən sonra onu ucuz qiymətə alverçilərə verməyə məcbur olur. Çünki hərdən təşkil olunan və az sayda fermerin iştirak etdiyi yarmarkaları nəzərə almasaq, onların öz məhsulunu sərbəst satması üçün lazımi şərait yaradılmayıb. Bazarlar isə alverçilər tərəfindən zəbt olunub və məhsul istehsal edən kəndlilər oraya giriş imkanları yoxdur. Bu səbəbdən də, hər hansı bir məhsulu kəndlidən sahədə 20-30 qəpiyə alan möhtəkirlər onu bazarda dükanda ən azı 1 manata satırlar. Belədə, iki tərəf uduzur-istehsalçılar və istehlakçılar. Bir tərəf də udur ki, bunlar da dəllallar, yeni möhtəkirlərdir. Bu prosesdən qazanan daha bir tərəf isə xaricdən ərzaq idxal edənlərdir.

Ona görə də təklif edirik ki, KTN tərəfindən ölkənin bütün şəhərlərində daimi fəlaiyyət göstərən və yalnız öz məhsulunu satan kəndlilərin buraxıldığı yarmarkalar təşkil edilsin. Bakı şəhərində azı 5-6, Gəncə və Suymqayıt kimi iri şəhərlərdə 2, digər şəhərlərdə 1 daimi yarmarka təşkil edilsə, rayonlardan öz məhsulunu satmağa gətirənlər pulsuz olara qoraya buraxılsa, o zaman ərzaq bazarında ucuzluq yaranacaq. Öz məhsulunu rahat, maneəsiz sata bilmiş və gəlir əldə etmiş təsərrüfat sahibləri növbəti illərdə daha çox məhsul istehsal etməyə çalışacaqlar və nəticədə ölkə bazarında ucuzluq və bolluq yaranacaq.

Bununla paralel olaraq, aqrar sektorda suvarma, gübrələmə, növbəli əkin sistemi, aqrotexniki qulluq, kənd təsərrüfatı texnikaları ilə təchizat işləri də qaydasına salınsa böyük nailiyyətlər əldə etmək olar.

Kənd təsərrüfatı məhsulları həm də yüngül və yeyinti sənayesi deməkdir. Bölgələrdə çox sayda kiçik və orta emal müəssisələri yaradılsa biz məhsulumuzu xaricə xammal kimi ucuz satmarıq, hazır məhsul kimi daha baha sata bilərik və buradan həm istehsalçılar, həm də dövlət xeyli gəlir əldə edə bilər. Beləliklə, nəhəng aqrar-sənaye zənciri formalaşa bilər ki, ölkəmiz nəinki özünü əsas tələbat məhsulları ilə təmin edə bilər, hətta xeyli həcmdə hazır məhsul ixrac edə bilər.

Dövlət başçısının aqrar sektorun inkişaf etdirilməsi ilə bağlı hökumətin üzərinə qoyduğu vəzifələr düzgün yerinə yetirilsə, həm neftdən sonrakı dövr üçün böyük və gəlirli istehsal sahələri yaradılmış olar, həm də əhalimiz xaricdən gətirilən mənşəyi dəqiq aydın olmayan keyfiyyətsiz ərzaq məhsullarından azad olub, öz torpağımızın təbii və təmiz məhsulu ilə qidalanmış olar. Beləliklə, ərzaq təhlükəsizliyimiz tam təmin olunmuş olar.

***Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
19 dekabr 2025-ci il

# Marketlər endirimli məhsullara niyə limit qoyur ?

Son illər marketlərdə endirimli məhsulların üzərinə tətbiq olunan "1 alıcıya 2 ədəd", "1 nəfərə 1 paket", "limitli satış" kimi məhdudiyyətlər daha tez-tez müşahidə edilir. Bu, bəzən istehlakçılar tərəfindən narazılıqla qarşılanır, lakin pərakəndə satış sektorunun qaydaları və bazar mexanizmləri göstərir ki, limitlərin arxasında həm iqtisadi, həm logistik, həm də sosial səbəblər dayanır. Məhsul qıtlığının qarşısının alınmasından tutmuş sui-istifadə hallarının məhdudlaşdırılmasına qədər geniş səbəblər bu təcrübəni zəruri edir. SİA mövzu ilə bağlı araşdırma edib.



## Süni tələbatın qarşısını almaq

Endirim elan olunduqda bəzi istehlakçılar ehtiyaclarından artıq məhsul toplayır. Bu davranış bazarda süni qıtlıq yaradır və digər alıcıların endirimdən yararlanmasına mane olur. Marketlər bu kimi halların qarşısını almaq üçün limit tətbiq edir ki, məhsullar daha çox insan arasında bölünsün.

## "Reseller"lərin qarşısını almaq

Bəzi şəxslər endirimli məhsulları toplu şəkildə alıb daha sonra bazarda, sosial şəbəkə mağazalarında və ya digər satış kanallarında baha qiymətə yenidən satırlar. Bu, həm qiymət manipulyasiyasına səbəb olur, həm də real istehlakçının zərərinə işləyir. Limit qoymaqla marketlər bu sui-istifadə hallarını məhdudlaşdırır.

## Məhsul anbar dövriyyəsinin tənzimlənməsi

Endirimlər adətən məhsulun son istifadə tarixi yaxınlaşdıqda, yeni partiya gəlmədən əvvəl, stok optimallaşdırılması məqsədilə təşkil olunur. Market istəmir ki, məhdud miqdarda olan bu məhsul bir neçə alıcı tərəfindən birdəfəlik "süpürülüb" aparılsın. Məqsəd məhsulu mümkün qədər çox müştəriyə çatdırmaqdır.

## Alıcı axınının idarə olunması

Kütləvi endirim zamanları (Bayram kampaniyaları, Black Friday və s.) birdən-birə çox sayda alıcı axını yaradır. Məhsulların məhdudlaşdırılması kütləvi toplanmanın, market daxilində sıxlığın, kassalarda gərginliyin qarşısını almağa kömək edir.

## Marketin reputasiyasının qorunması

Endirim elan edən marketlərin tez bitən məhsullar səbəbindən narazılıqla üzləşməsi geniş yayılmışdır. Məhdudiyyətlər tətbiq etməklə marketlər endirimli məhsulun daha uzun müddət vitrinlərdə qalmasını, daha çox müştərinin kampaniyanı hiss etməsini təmin edir və bununla reputasiya risklərini azaldır.

## Təchizat zəncirində qeyri-stabillik

Son illər qlobal logistika xərcləri, istehsal fasilələri və idxal-ixrac dəyişiklikləri bəzi məhsulların stabil təminatını çətinləşdirir. Xüsusilə yağ, şəkər, un, yumurta, uşaq məhsulları kimi məsulların həm endirimli, həm də limitli satılması təchizat risklərini idarə etmək üçündür.

## Sosial ədalət prinsipini qorumaq

Marketlər üçün önəmli məqamlardan biri də sosial narazılıqları minimuma endirməkdir. Məhsulu hamının ala bilməsi üçün limit tətbiqi bir növ sosial ədalət mexanizminə çevrilib. Xüsusən aztəminatlı ailələr üçün məhsulların əlçatanlığı vacib amildir.

## Marketin marketinq strategiyası

Limitlər bəzən kommersiya qərarı kimi də tətbiq olunur. Məhsulu daha "arzulunan", daha "səlahiyyətli" göstərmək üçün limitlər psixoloji təsir mexanizmi rolunu oynayır. Bu, marketingdə "scarcity marketing" adlanır. Marketlərdə endirimli məhsullara qoyulan limitlər sadəcə satış məhdudiyyəti deyil, həm bazar mexanizmlərinin, həm logistikanın, həm də sosial faktorların tələb etdiyi bir idarəetmə formasıdır. Məqsəd həm satışın ədalətli aparılması, həm bazarın stabil saxlanılması, həm də istehlakçı narazılıqlarının qarşısının alınmasıdır.

*Ayşən Vəli*

## ELAN

2007-ci ilin sentyabrında Mütəllimova Gülşən Hüseynbala qızına verilmiş Şəhid ailəsi üzvünü təsdiq edən vəsiqə itdiyi üçün etibarsız sayılır.


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## ƏHALİYƏ ŞAD XƏBƏR! Pensiya və müavinətlər bu qədər ARTIRILACAQ



2026-cı il üçün sosial ödənişlər sahəsində planlaşdırılan artımlar cəmiyyətdə geniş müzakirə olunur. Xüsusilə pensiyaların indeksləşdirilməsi və sosial müavinətlər üzrə gözləntilər vətəndaşların real gəlirlərinin qorunması baxımından mühüm əhəmiyyət daşıyır. Orta aylıq əməkhaqqının artımı fonunda pensiya və müavinət mexanizmlərinin necə tənzimlənəcəyi sosial siyasətin əsas gündəm mövzularından biridir.

Mövzu ilə bağlı NOCOMMENT.az-a açıqlamasında Liberal İqtisadçılar Mərkəzinin sədri, iqtisadçı ekspert Akif Nəsirli bildirib ki, 2026-cı il üçün pensiyalarda orta aylıq əməkhaqqının artımına uyğun olaraq təxminən 9.2 % indeksləşdirmə və artım proqnozlaşdırılır. Bu artım pensiyaların nominal məbləğinin yüksəldilməsinə və real gəlirin qorunmasına hesablanıb. Ekspertin sözlərinə görə, proqnozlara əsasən orta aylıq pensiya 590 manata yaxınlaşacaq və əmək pensiyaları üzrə büdcə xərcləri artırılacaq.



## Qusarda kişi keçmiş arvadını öldürüb

Qusar rayonunda qadın öldürülüb, şübhəli qismində keçmiş əri saxlanılıb. "Report" xəbər verir ki, dekabrın 16-da səhər saatlarında Qusar rayonunun Hil kəndindəki evdə kənd sakini, 32 yaşlı Diana Təyibovanın üzərində zorakılıq əlamətləri olan meyiti tapılıb. Polis əməkdaşlarının keçirdiyi tədbirlərlə onu keçmiş əri, kənd sakini 35 yaşlı Asif Təyibovun münaqişə zəminində boğması, kəsici alətlə boğaz nahiyəsinə vuraraq öldürdüyü müəyyən edilib və o, saxlanılıb. Hadisə ilə bağlı araşdırma aparılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
**Tiraj: 3000**